AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

**Latviyada Təhsil**

**Hökumətlərarası Təqaüd Proqramı (HTP) – 2020-2021**



Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlığa dair 2017-ci il iyulun 17-də Riqa şəhərində imzalanmış Sazişə uyğun olaraq, Latviya hökuməti Azərbaycan vətəndaşları üçün təqaüd proqramı elan edir:

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura

**Tədris dili:** ingilis və ya latış

**Maliyyə şərtləri:** bakalavriat və magistratura təhsil səviyyələri üzrə aylıq 500 avro, doktorantura təhsil səviyyəsi üzrə aylıq 670 avro təqaüd təmin olunur. Səyahət və sığorta xərcləri, təhsil haqqı namizədlərin özləri tərəfindən qarşılanır.

**İxtisas və universitetlərə dair məlumat:**

http://www.studyinlatvia.lv/niid_search?level_1=&qy=&x=73&y=7

**Son müraciət tarixi: 01.04.2020**

**Tələb olunan sənədlər:**

- Qəbul məktubu (Latviya ATM-lərindən birindən)
- CV (tərcümeyi-hal);
- Təhsil sənədlərinin və qiymət cədvəllərinin təsdiqlənmiş surətləri;
- Motivasiya məktubu;
- 2 ədəd tövsiyə məktubu (imza və möhürlü);
- Təqaüd verilən müddət üçün tədris planı;
- Xarici dil sertifikatının təsdiqlənmiş surəti;
- Ümumvətəndaş pasportunun surəti;

Qeyd: Qeyd olunan sənədlərin ingilis dilində təqdim olması tələb olunur.

**Ətraflı:**http://viaa.gov.lv/eng/scholarships_gov/scholarships_for_studies/

**Seçim prosesi:** Namizədlərin müraciətləri araşdırıldıqdan sonra yekun qərar Latviya Dövlət Təhsil İnkişaf Agentliyi (DTİA) tərəfindən verilir.

**Müraciət forması:** Müsabiqədə iştirak etmək arzusunda olan Azərbaycan Respublikası vətəndaşları

- **1-ci** Latviya elektron ərizə sistemi doldurulub təsdiq etməlidir; https://scholarships.viaa.gov.lv/en/login - **01.04.2020**-cu tarixinədək;
- **2-ci** Azərbaycan Respublikası Təhsil Nazirliyinin elektron ərizə sistemini* tamamlayıb təsdiq etməlidir; https://www.app.htp.edu.az/ -**01.04.2020**-cu il tarixinədək;

* 2020/21-ci tədris ili üzrə Latviya təqaüd proqramına layiq görüləcək şəxslər sırasından yalnız Təhsil Nazirliyinin elektron ərizə sistemini tamamlamış şəxslərin adları Hökümətlərarası Təqaüd Proqramı çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış Azərbaycan Respublikası vətəndaşlarının siyahısına daxil ediləcəkdir. Bunu nəzərə alaraq, Lativya tərəfinə edilmiş müraciətlərlə yanaşı, Azərbaycan Respublikasım Təhsil Nazirliyinin elektron ərizə sistemi üzrə də müraciətlərin təsdiqlənməsi xahiş olunur.

**Əlaqədar şəxs:**

Azərbaycan tərəfdən:

- Elçin Hüseynov Elchin.Huseynov@edu.gov.az

Latviya tərəfdən:

- Mrs. Marika Pira (DTİA-nın əməkdaşı)

Tel: + 371 67814331, e-mail: scholarships@viaa.gov.lv